AZƏRBAYCAN XƏBƏRLƏRİ

Nisyə mal satanlara yeni tələb qoyulur

Noyabr 10, 2026



Dükan sahibi :'Nisyə dəftəri dolur, cavan-cavan oğlanlar xəcalətlənir' (Arxiv videosu-2021)

Nisyə mal satışı ilə məşğul olan şirkətlərə və fərdi sahibkarlara verilən kreditlər üzrə əlavə qiymətləndirmə meyarı müəyyən edilib. Mərkəzi Bankın sədri **Taleh Kazımov** bununla bağlı sentyabrın 15-də qərar imzalayıb. Qərarın bugünlərdə qüvvəyə minəcəyi gözlənilir.

Yeni qaydaya əsasən, həmin sahibkarlar nisyə satış portfelinin ümumi həcmi və alıcıların sayı barədə banka məlumat verməlidirlər. Bank isə bu rəqəmləri kredit bürolarına ötürülən müvafiq göstəricilərlə tutuşduracaq. Əgər göstəricilərdən hər hansı biri üzrə **uyğunluq 90 faizdən aşağı olarsa, həmin kredit "qeyri-qənaətbəxş aktivlər" kateqoriyasına daxil ediləcək**.

Davranış modeli (təxmini gəlir hesablama üsulu) ilə verilən kreditlər elə ilk gündən bank tərəfindən xüsusi nəzarətə götürüləcək.

Eyni zamanda, bankların borcalanın gəlirlərini hesablaması qaydası da sərtləşdirilib. Yeni tələbə görə, borcalanın gəlirlərini sənədlərlə və ya dövlət sistemlərindən öyrənmək mümkündürsə, bank ona davranış modeli ilə "təxmini gəlir" yaza bilməyəcək.

Bundan başqa, Mərkəzi Bank rəhbərliyinin digər bir qərarı ilə "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda"ya da dəyişiklik olunur. Yeniliyə görə, **istehlak kreditlərinə zamin duran şəxsin borc yükünün gəlirinə nisbəti 70 faizi keçməməlidir.** Bu tələb müvafiq müddəa qüvvəyə mindikdən sonra rəsmiləşdirilən kreditlərə aid ediləcək. Məsələn, zaminin aylıq gəliri 1000 manatdırsa, onun mövcud borcları üzrə aylıq ödənişi 700 manatdan çox ola bilməz.

Xatırlatma

Mərkəzi Bankın son hesabatına əsasən, bu il oktyabrın 1-nə ölkə banklarında vaxtı keçmiş kreditlərin həcmi 754.3 milyon manata yüksəlib. Ötən ilin dekabrı, bu ilin iyun və avqust ayları istisna olmaqla, son bir ildə problemli kreditlərdə davamlı artım qeydə alınıb. Nəticədə, gecikmədə olan kreditlər ilin əvvəli ilə müqayisədə 35 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə isə 42 faizdən çox artıb.

Ümumi portfeldə istehlak kreditlərinin payının artması da diqqət çəkir. İqtisadçılar bu tendensiyanı ölkə iqtisadiyyatı üçün müsbət hal hesab etmirlər. Rəsmi qurumlar problemli kreditlərdəki artımla bağlı hələlik açıqlama verməsələr də, müstəqil ekspertlər bunu birbaşa əhalinin maddi durumunun və alıcılıq qabiliyyətinin zəifləməsi ilə izah edirlər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur